


# Kapitulyasiyanın etirafı

## *Üçtərəfli bəyanat Ermənistanın məğlubiyyətinin təsdiqi oldu*

***Bu il noyabrın 8-də Azərbaycan xalqı Qarabağın azad olunmasının birinci ildönümünü böyük sevinc və qürur hissi ilə qeyd etdi. Bununla da ölkəmiz, təxminən, 30 illik erməni işğalına son qoydu, Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və indiyədək ikili standartlar səbəbindən kağız üzərində qalmış 4 qətnaməsini yerinə yetirdi, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi bərpa etdi. Azərbaycanın 44 günlük Vətən savaşı ədalətli müharibə idi. Biz öz torpağımızda vuruşduq, qan tökdük, şəhidlər verdik. Bizim başqa ölkələrin torpağında heç vaxt gözümüz olmayıb və İkinci Qarabağ savaşının nəticələri də bunu göstərdi. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən üçtərəfli bəyanat imzalandıqdan sonra müharibə dayandırıldı, bütün atışmalara son qoyuldu.***

Azərbaycan Prezidenti müharibənin ilk günlərindən açıq bəyan edirdi ki, əgər Ermənistan bizə torpaqlarımızdan qoşunlarının çıxarılma təqvimini verərsə, hər an müharibəni dayandırmağa hazırıq. Belə də oldu və Azərbaycan sözünə əməl etdi. 44 gündən sonra Ermənistan təslim aktını imzalayaraq o vaxta qədər azad edilməmiş torpaqlardan da çıxmağa məcbur oldu və beləliklə, İkinci Qarabağ savaşı başa çatdı.

**(ardı 3-cü səhifədə)**

# Kapitulyasiyanın etirafı

(əvvəli 1-ci səhifədə)

44 gün ərzində şanlı ordumuz döyüş meydanında 300-dən çox şəhər və kəndi işğalçılardan azad etdi. Yüzlərlə şəhər və kənd isə artıq sonradan sülh prosesi nəticəsində azad edildi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

Bu il noyabrın 10-da xalqımız Azərbaycan, Rusiya və Ermənistan arasında üçtərəfli bəyanatın imzalanmasının birinci ildönümünü də qeyd etdi. Bəyanatda deyilirdi ki, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Azərbaycan və Ermənistan hazırda tutduqları mövqelərdə qalacaqlar.

İkinci bənddə 20 noyabrda Ağdam rayonunun Azərbaycana qaytarılması nəzərdə tutulurdu. 3-cü bənd. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. 4-cü bənddə deyilirdi: Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır. 5-ci bənddə münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılacağı qeyd olunurdu.

6-cı bənddə bildirilirdi ki, Ermənistan 15 noyabr 2020-ci il tarixinədək Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu Azərbaycana qaytarır. "Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir. 7. Sonrakı bəndlərdə daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. 8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir. 9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".



Noyabrın 10-da gecə üçtərəfli bəyanatın imzalanmasından sonra Azərbaycan Prezidenti xalqa müraciət etdi: "Bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq".

Dövlət başçısı bildirdi ki, bu bəyanat bizim şanlı qələbəmizdir: "Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm". Onun sözlərinə görə, bununla hərbi mərhələ başa çatdı: "Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır".

Prezident İlham Əliyev bəyan etdi ki, bu qələbə Azərbaycan xalqının birliyi nəticəsində əldə olundui: "Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz, bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir".

Dövlət başçısı bir mühüm məsələni iftixar hissi ilə əziz xalqına çatdırırdı: "Yəqin, siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! ...Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var".

Prezident İlham Əliyev daha sonra bəyan etdi: "Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"

Qeyd etməliyik ki, artıq bəyanatın bir sıra bəndləri yerinə yetirilib. Noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu işğaldan azad edilib. Azərbaycan bu rayonların işğaldan azad edilməsinə heç bir itki vermədən nail olub. Azərbaycan və Ermənistan arasında əsirlərin və cəsədlərin mübadiləsi həyata keçirilib. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək, bununla belə, Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altına verilib. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradılıb.

Üçtərəfli bəyanatın qalan bəndlərinin icrası istiqamətində işlər davam etdirilir. Ermənistanın hər hansı sabotaj cəhdləri isə ordumuzun "dəmir yumruğ"u ilə aradan qaldırılır. Zəngəzur dəhlizinin açılması ilə bağlı Prezident İlham Əliyev Türk Şurasının sonuncu iclasında bəyan etdi: "Mən Naxçıvan zirvəsindəki çıxışımı xatırlatmaq istəyirəm. O zaman mən demişdim ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq".

Azərbaycan rəhbəri qeyd etdi ki, biz indi böyük bərpa işləri ilə məşğuluq. İkinci Qarabağ savaşının nəticələri bölgə üçün yeni imkanlar açır. Zəngəzur dəhlizinin açılması isə həm türk dünyasını, həm Avropanı, həm də qonşularımızı birləşdirəcək.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 24 noyabr.- S.1;3.